| | |
|---|---|
| | **AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**<br>**"NAXÇIVAN" UNİVERSİTETİ**<br>**FƏNN SİLLABUSU**<br><br>Təsdiq edirəm:___________**X.M.Əliyeva**<br>Tarix: 10 fevral 2022 |

| | | |
|---|---|---|
| **Fənnin təsviri** | **Fənn (adı, krediti)** | Qərbdə İslam Tədqiqatları, 4 kredit |
| | **Fakültə** | Xarici Dillər |
| | **İxtisas** | Dinşünaslıq 050202 |
| | **Səviyyə (bakalavriat, magistratura)** | Bakalavriat |
| | **Kurs** | II |
| | **Semestr** | Yaz, 2021-2022 – ci tədris ili |
| | **Təlimçi** | Məmmədli Nərgiz Əsgər qızı |
| | **e-mail** | nargismmdl@gmail.com |
| | **Telefon** | 0503784404 |
| | **Dərs günləri və saatları** | II gün I saat, V gün II saat |
| **Tədris dili** | Azərbaycan dili | |
| **Baza/ Seçmə** | Baza | |
| **Tələb olunan dərsliklər və dərs materialları** | 1. Sarıçam İbrahim – Erşahin Seyfeddin. İslam medeniyyeti tarihi. 6-cı Nəşr, Ankara: TDV Yayınları, 2015.<br>2. Baloğlu Bülent. Yiriminci yüzyıl sonları batılı islam araştırmacılığının meşhur bir siması: Norman Calder. ( 1950 - 1998). İslam Hukuku Araştırmaları Dergisi, sayı: 9, 2007, S.277-286.<br>3. Gökkır Bilal. Batı islam araştırmalarına göre kur'an'ın oluşumunda hz peygamber'in rolü meselesi. VI Kutlu Doğum Sempozyumu. Isparta: 21 Nisan 2003. s. 97-100.<br>4. Aybakan Bilal. Batı`da islam hukuku araştirmalarında farklı bir ses: Wael B. Hallaq. İslam Hukuku Araştırmaları Dergisi, Sayı: 4, 2004, s.149-174.<br>5. Kalın İbrahim. Batı'daki islam algısının tarihine giriş. DOVBN İlmo Araştırmalar sy. 15 (2003/2), s. 1-51.<br>6. Davutoğlu Ahmet. Batıdaki islam araştırmaları üzerine. Marife: Bilmsel birikim, Oryantalizm. yıl: 2, sayı: 3, kış 2002, s. 39-52.<br>7. Çolak Yaşar. Batı'daki islam araştırmaları üzerine bazı mülahazalar. Uluslararası Avrupa Birliği Şurası (Tebliğ ve müzakereleri). Ankara: 3-7 May. 2000, s. 310-318.<br>8. Yüksel Ahmet Turan. Bazı batılı araştırmacılara göre ilk islam fetihleri. Selcuk Üniversitesi İlahiyat Fakültesi. Konya: 1996. Sayı: 6. s. 169-195.<br>9. İbrahim Haseneyn Tevfik- el-Hudeyni Emani Mesud. Batılı araştırmalarda islami uyanış olgusu. tahlili ve tenkitçi bir yaklaşım. The Phenomenon of Islamic Revival in The Western Scholarship: A Critical and Analytical Approach. Journal of Islamic Research Vol: 7, No: 3-4, Summer-Autumn 1994. s. 261-290.<br>10. Aydın Mehmet S. Batıdaki islam araştırmalarına dair bazı düşünceler. Uluslararası Birinci İslam Araştırmaları Sempozyumu. İzmir: 16 - 18 Eylül, 1985.<br>11. Halman Hugh Talat. Batı'da tasavvuf: interspiritüel çağ'da islam. çev.: Betül Tarakçı, Karadeniz Teknik Üniversitesi. İlahiyat Fakültesi Dergisi, cilt / volume: 5, sayı / ıssue: 1. (Bahar / Spring 2018): 255-290. | |
| **İstifadə ediləcək web səhifələr** | https://islamansiklopedisi.org.tr/ | |
| **Fənnin xülasəsi** | Fənnin tədrisi zamanı sosial elmlərin bir sahəsi kimi, Qərbdə İslam tədqiqatları sahəsinin tədqiqat metodları, qərbdə İslam tədqiqatları fənninin metodlarına əsasən həmin tədqiqatları obyektiv şəkildə təhlil etmə bacarığı və qərb dünyasındakı İslam tədqiqatlarını mövzular və problemlər üzrə təhlil etmə bacarığı aşılanır. | |

<table>
<tr><td rowspan="1">Fənnin məqsədləri</td><td colspan="2">Qərb aləmində İslam dini və düşüncəsi ilə bağlı hansı tədqiqatların mövcud olduğunun tədqiqi və öyrənilməsidir. Bu mənada bu fənnin aktuallığı, Qərbdə aparılan İslam tədqiqatlarının əhəmiyyəti, onların İslam Şərqində İslam dini və düşüncəsi ilə bağlı aparılan tədqiqatlara təsiri, Qərbdə İslam tədqiqatlarının ilkin dövrü və Quran, Təfsir, Hədis, İslam hüququ, İslam tarixi, İslam mədəniyyəti və müəssisələri tarixi, İslam məzhəbləri tarixi, İslam fəlsəfəsi, İslam əxlaq fəlsəfəsi, İslam kəlamı və Təsəvvüf sahəsindəki tədqiqatlar haqqında tələbələrdə ümumi təsəvvür formalaşdırmaqdır.</td></tr>
<tr><td>Öyrənmə nəticələri</td><td colspan="2">Kursun sonunda tələbələr bilməlidir:<br>1. Qərbdə İslam tədqiqatları fənninin əhəmiyyəti;<br>2. Qərb dünyasında şərqşünaslığın tarixi;<br>3. Qərb şərqşünaslığının mənbələri;<br>4. Qərbdə aparılan İslam tədqiqatlarının İslam Şərqində İslam dini və düşüncəsi ilə bağlı aparılan tədqiqatlara təsiri;<br>5. Qərbdə İslam tədqiqatlarının ilkin dövrü;<br>6. Qərbdə Quran, Təfsir, Hədis, İslam hüququ, İslam tarixi, İslam mədəniyyəti və müəssisələri tarixi;<br>7. Qərbdə İslam məzhəbləri tarixi, İslam fəlsəfəsi, İslam əxlaq fəlsəfəsi, İslam kəlamı, İslam hüququ (fiqhi) və s. sahələrdəki əsas tədqiqatlar və onların klassifikasiyası.</td></tr>
<tr><td rowspan="6">Tədris metodları</td><td>Mühazirə</td><td>Fənnə aid ümumi xarakterli məlumatlar verilir.</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td>Tələbələrə fərdi mövzuda təqdimatlar verilir və müzakirəsi aparılır.</td></tr>
<tr><td>Təcrübi məşğələ</td><td>Yeni mövzu əyani vəsaitlərin (PPT və video fayllar) nümayişi ilə izah edilməlidir.</td></tr>
<tr><td>Simulyasiya</td><td>Tələbələrə dərsə aid fərdi laborator işləri verilməli və simulyasiya proqramlarından istifadə edilərək nəticələr qeyd edilməlidir.</td></tr>
<tr><td>Layihə</td><td>Fənnə aid ümumi xarakterli məlumatlar verilir</td></tr>
<tr><td>Digər</td><td>Dərsin tədris zamanı mühazirə və seminar məşğələlərinin keçirilməsi nəzərdə tutulur.</td></tr>
<tr><td rowspan="11">Qiymətləndirmə</td><td>Mövzunun mənimsənilməsi</td><td>Faiz nisbəti (%) və ya bal</td></tr>
<tr><td>Balların maksimum miqdarı</td><td>100 bal</td></tr>
<tr><td>1. Semestr ərzində toplanmış maksimum bal</td><td>50 bal (50%)</td></tr>
<tr><td>- Dərsə davamiyyətə görə maksimum bal</td><td>10 bal (10%)</td></tr>
<tr><td>- Tələbələrin sərbəst işinə görə maksimum bal</td><td>10 bal (10%)</td></tr>
<tr><td>- Seminar və laboratoriya dərslərinin nəticələrinə görə maksimum bal</td><td>30 bal (30%)</td></tr>
<tr><td colspan="2">Qeyd: seminar dərslərində tələbənin jurnalda ən azı 3 (üç qiyməti olduğu halda, ona tədrisin bu növü üzrə ballar hesablanır. Əks təqdirdə tələbəyə bal hesablanmır.</td></tr>
<tr><td>2. İmtahan nəticələrinə görə maksimum bal</td><td>50 bal (50%)</td></tr>
<tr><td colspan="2">3. Fənnin mənimsənilməsi qaydası: semestr ərzində imtahan nəticəsinə görə toplanan balların cəmi 50-dən yuxarı olan tələbələr fənni mənimsəmiş hesab edilir.<br>- 51 baldan aşağı – “qeyri kafi” – F<br>- 51 – 60 - “qənaətbəxş” – E<br>- 61 – 70 – “kafi” – D<br>- 71 – 80 – “yaxşı” – C<br>- 81 – 90 – “çox yaxşı” – B<br>- 91 – 100 – “əla”</td></tr>
<tr><td>Cəmi:</td><td>100 bal (100%)</td></tr>
<tr><td colspan="2"></td></tr>
<tr><td>Qiymətləndirmə metodları</td><td colspan="2">Tapşırıqlar: Sərbəst iş mövzuları verilir və semester sonu yoxlanılıb qiymətləndirilir.<br>1. İslam tədqiqatları fənninin obyekti, predmeti və aktuallığı<br>2. Qərbdə İslam tədqiqatlarının təşəkkülündə şərqşünaslığın rolu, tarixi və</td></tr>
</table>

| | |
|---|---|
| | mənbələri.<br>3. Qərbdə İslam tədqiqatlarının ilkin dövrü və xarakterik xüsusiyyətləri.<br>4. Qərbdə Quran və Təfsir sahəsində aparılmış araşdırmalar.<br>5. Hədis araşdırmalarına dair ümumi məlumatlar və onların təhlili.<br>6. İslam tarixi araşdırmalarına dair elmi əsərlərin ümumi təhlili.<br>7. Qərbdə İslam fəlsəfəsi araşdırmalarının ümumi siyahısı və İslam dünyasında bu sahədəki əsas elmi əsərlər.<br>8. İslam hüququ araşdırmalarının ümumi klassifikasiyası.<br>9. İslam kəlamı haqqındakı tədqiqatların ümumi cəhəti.<br>10. Qərbdə təsəvvüf sahəsindəki əsas tədqiqatlar<br>11. Qərbdə İslam mədəniyyəti ilə bağlı əsas tədqiqatçılar.<br>12. Müasir dövrdə Qərbdə İslam araşdırmalarına yeni yanaşmalar.<br><br>**Təqdimat:** Slaydlarla hazırlanan mövzular təqdimat şəkilində sunulur və qiymətləndirilir.<br>**Kollokvium:** Semestr ərzində 3 (üç) dəfə yazılı, şifahi və test şəklində olur və qiymətləndirilir. |
| **Qaydalar** | **Davamiyyət:** Fənn üzrə ayrılmış bütün saatların 25%-dən çoxunda iştirak etməyən tələbə imtahana buraxılmır.<br>**Buraxılmış imtahan və ya tapşırıqlar:** Tələbə planlaşdırılan təqdimatda və ya imtahanda iştirak edə bilməyəcəyi təqdirdə əvvəlcədən məlumat verməlidir. Tam sinif iştirakı və təyin olunmuş ev tapşırığını yerinə yetirilməsi gərəklidir.<br>Tədqiqat işlərində, hazırlanmış layihələrdə istifadə olunan mənbələrə istinad veril-məlidir. Bununla birlikdə, tələbə tərəfindən təhlil edilmədən, yalnız istinad və sitatlardan ibarət olan hər hansı bir tədqiqat işi qəbul edilə bilməz.<br>Testlər zamanı köçürmə, təyin edilmiş qaydalara tabe olunmadığı təqdirdə tələbə imtahan nəticəsinin ləğv olunmağı ehtimalı daxil olmaqla cəzalandırılacaqdır.<br>Təqdimatların / layihə sənədlərinin mövzuları fənni tədris edən müəllim tərəfindən əvvəlcədən müəyyənləşdiriləcəkdir. Müəllim ilə əvvəlcədən razılaşdırıldığı təqdirdə digər tələbələrlə əməkdaşlığa icazə verilə bilər. |

**Tematik plan**

| Həftə | Tarix | Mövzular | Dərslik / Tapşırıq / Ədəbiyyat |
|---|---|---|---|
| **1** | 21.02.2022 | **Qərbdə İslam tədqiqatları fənninin obyekti, predmeti və aktuallığı**<br>Qərbdə İslam tədqiqatları fənninin obyekti, predmeti və aktuallığı. Qərbdə İslam tədqiqatları fənninin qayəsi və əhəmiyyəti. Qərb dünyasında tərcümə fəaliyyətləri. İslam elmi-mədəni irsinin Qərb dünyasına transformasiya prosesi. | Kalın, s. 1-51;<br>Davutoğlu, s. 39-52;<br>Çolak, s. 310-318;<br>Aydın, s. 233-240.<br>**Tapşırıq:** Qərbdə İslam tədqiqatlarının əhəmiyyətinin araşdırılması. |
| **2** | 28.02.2022 | **Qərbdə İslam tədqiqatlarının təşəkkülündə şərqşünaslığın rolu, tarixi və mənbələri**<br>Qərbdə şərqşünaslığın tarixi. Məşhur Qərb şərqşünasları və İslam dünyasına yanaşma formalarının xarakteristik xüsusiyyətləri. Qərbdə şərqşünaslığın İslam tədqiqatlarının təşəkkül və inkişafındakı rolu. Şərqşünaslığın mənbələri. Ontoloji mənbə. Epistemoloji mənbə. Aksioloji mənbə. Siyasi mənbə. Eduard Səid, Orientalizm (Şərqşünaslıq). | Kalın, s. 1-51;<br>Davutoğlu, s. 39-52;<br>Çolak, s. 310-318.<br>**Tapşırıq:** Şərqşünaslıq tarixinin və mənbələrinin öyrənilməsi. |

| | | | |
|---|---|---|---|
| **3** | 07.03.2022 | **Qərbdə İslam tədqiqatlarının ilkin dövrü və xarakterik xüsusiyyətləri**<br>Qərbdə İslam tədqiqatlarının ilkin dövrü. Albert Houraninin İslam tədqiqatlarının ilkin dövrü ilə əlaqədar görüşləri. Xristian din adamlarının İslam və Peyğəmbəri haqqındakı görüşləri. R.V.Sauzern (Richard William Southern) "Western views of Islam in the Middle Age" ("Orta əsrlərdə Qərbdə İslam təsəvvürü") adlı əsəri. | Sarıçam-Erşahin, s. 309-345;<br>Baloğlu, s. 277-286;<br>Gökkır, s. 97-100;<br>Aybakan, s. 149-174;<br>Yüksel, s. 169-195.<br>**Tapşırıq:** Qərbdə İslam tədqiqatlarının ilkin dövrünün öyrənilməsi. |
| **4** | 14.03.2022 | **Qərbdə İslam tədqiqatlarının ilkin dövrü və xarakterik xüsusiyyətləri (ardı)**<br>"Age of ignorance" ("Cahillik dövrü") olaraq adlandırılan bir dövr. İspaniyada tərcümə mərkəzi. Qərbdə İslam tədqiqatlarının ortaq cəhəti və xarakterik xüsusiyyətləri. Quranın vəhyin əsəri olmadığı tendensiyası. | Sarıçam-Erşahin, s. 309-345;<br>Baloğlu, s. 277-286;<br>Gökkır, s. 97-100;<br>Aybakan, s. 149-174;<br>Yüksel, s. 169-195.<br>**Tapşırıq:** Qərbdə İslam tədqiqatlarının xarakterik xüsusiyyətlərinin araşdırılması. |
| **5** | 21.03.2022 | **Quran və təfsir araşdırmaları**<br>Qərbdə Kitabi-Müqəddəs tənqidçiliyi, Tövratdakı ilk beş kitaba ("Təkvin", "Çıxış", "Levililər", "Sayılar" və "Təsniyə") yəhudi-xristian yanaşması. İncilə tənqidlər. "Matta" və "Markos" incilləri. XIX əsrdən sonra Qərbdə İslam tədqiqatları. Qədim və Yeni Ətiqə tətbiq edilən tənqid metodlarının Qurana yönəldilməsi və Yulius Velhauzenin (Julius Wellhausen / 1844-1918) tədqiqatları. H.A.R. Gibb (Hamilton Alexander Rosskeen Gibb), V. M. Uott (William Montgomery Watt), R. Blaşer (Regis Blachere), T. Nöldeke (Theodor Nöldeke), Riçard Bel (Richard Bell) və s. Quran ilə bağlı tədqiqatları və tarixi-filoloji tənqid metodları. Qərbdə İslam tədqiqatlarına görə Quranın meydana gəlməsində Məhəmməd Peyğəmbərin rolu məsələsi və bu məsələnin teoloji əsasları. | Gökkır, s. 97-100;<br>Davutoğlu, s. 39-52;<br>İbrahim-el Hudeyni, s. 261-290;<br>Aydın, s. 233-240.<br>**Tapşırıq:** Quran ilə bağlı tədqiqat və tənqidlərin öyrənilməsi. |
| **6** | 28.03.2022 | **Hədis araşdırmaları**<br>Tarixi-filoloji tənqid metodları. İqnas Qoldziher. (Ignac Goldziher / 1850-1921) və hədis araşdırmaları. Protestant ilahiyyatı və filologiya. Kitabi-Müqəddəs tənqidləri və İqnas Qoldziher. Reformist yəhudi ilahiyyatçısı Avraam Geyger (Abraham Geiger). David Fridrix Ştraus (David Friedrich Strauss) və Ferdinand Kristian Baurun (Ferdinand Christian Baur) kitabları. Maks Müller (Max Müller) metodologiyası və yanaşması. "Muslim Studies" əsəri və siyaq-sibaq metodu. | Baloğlu, s. 277-286;<br>Gökkır, s. 97-100;<br>Davutoğlu, s. 39-52.<br>**Tapşırıq:** Hədislərə yönəldilən tənqid metodlarının öyrənilməsi. |
| **7** | 04.04.2022 | **İslam tarixi araşdırmaları**<br>Albrext Not (Albrecht Noth) və Norman Kalder (Norman Calder). A.Not və "The early arabic historical tradition" ("Erkən ərəb tarixi ənənəsi") əsəri. İslam tarixi mənbələrində yer alan rəvayətlərə yönəldilən tənqidlər. Bülent Baloğlu, | Gökkır, s. 97-100;<br>Kalın, s. 1-51;<br>Davutoğlu, s. 39-52;<br>Çolak, s. 310-318;<br>Yüksel, s. 169-195.<br>**Tapşırıq:** İslam tarixi |

| | | | |
|---|---|---|---|
| | | XX əsrin sonları qərbli tədqiqatçıların məşhur siması: Norman Kalder (1950-1998). Bəzi qərbli tədqiqatçılara görə ilk İslam fəthləri. Sör Vilyam Myur (Sir William Muir), "The Caliphate: Rise, Decline and Fall" ("Xilafət: yüksəliş, geriləmə və tənəzzül"). Fred Makqrou Donner (Fred McGraw Donner), "The Early Islamic Conquests" ("Erkən dövr İslam fəthləri"). Leone Kaetani (Leone Caetani), "Studi di Storia Orientale" ("Şərq tarixşünaslığı"). Bernard Luis (Bernard Lewis), "The Arabs in History" ("Tarixdəki ərəblər). Filip Hitti (Philip Hitti). Siyasi və kultural İslam tarixi. | mənbələrində yer alan rəvayətlərə yönəldilən tənqidlərin araşdırılması. |
| **8** | 11.04.2022 | **İslam hüququ (fiqhi) araşdırmaları**<br>Qoldziher metodologiyası. Yozef Şaxt (Joseph Schacht) və İslam hüququna yanaşması. "Origins of Muhammedan Jurisprudence" ("Məhəmməd şəriətinin mənşəyi") əsəri və İslam hüququnun təşəkkül mərhələləri. Norman Kalder (Norman Calder) və "Studies in early muslim jurisprudence" ("Erkən dövr müsəlman şəriətinin öyrənilməsi") əsəri. Sahnunun "Müdəvvənə" adlı əsəri, Malikin Muvattası ("Fikir birliyi ilə qəbul edilən kitab"), ilk Hənəfi mətnləri, Şafeyinin Ummu, Əbu Yusifin "Kitabul-xərac" adlı əsərinin ədəbi tənqidi. Qərbdə İslam hüququ araşdırmalarında fərqli bir səs: Vail Hallaq (Wael B. Hallaq). | Gökkır, s. 97-100;<br>Aybakan, s. 149-174;<br>Kalın, s. 1-51;<br>İbrahim-el Hudeyni, s. 261-290.<br>**Tapşırıq:** Qərb şərqşünaslarının İslam hüququna yanaşmalarının öyrənilməsi. |
| **9** | 18.04.2022 | **İslam məzhəbləri tarixi araşdırmaları**<br>Qərbdə İslam məzhəbləri tarixi ilə bağlı əsas tədqiqatlar və müəllifləri. İslam məzhəblər tarixi araşdırmalarının ortaq cəhəti. Qərbdə məzhəblər tarixi metodologiyası araşdırmaları. İbrahim Hakkı Ünal. R. Ştrotman (Rudolf Strothmann) "On the history of Islamic heresiography (İslam məzhəblər tarixinə dair). H. Laust (Henri Laoust), "Abbasilər dövründə müsəlman məzhəblər tarixçiliyi". Kit Levinşteyn (Keith Lewinstein). "Studies in Islamic heresiography" ("İslam heresioqrafiyasına dair tədqiqatlar"). D. Sorde (Dominique Sourdel). "La Classification des sectes Islamique dans le Kitab al-milal d\`al-Shahrastani" ("Şəhristaninin "Miləl adlı kitabında İslam məzhəblərinin təsnifatı"). | Sarıçam-Erşahin, s. 309-345;<br>Baloğlu, s. 277-286;<br>Aydın, s. 233-240.<br>**Tapşırıq:** Qərb şərqşünaslarının İslam məzhəbləri tarixi ilə bağlı tədqiqatlarının öyrənilməsi. |
| **10** | 25.04.2022 | **İslam kəlamı araşdırmaları**<br>Qərbdə İslam kəlamına dair təməl tədqiqatlar və müəlliflər. Qərbdə İslam Kəlam elminin mövzularına dair tədqiqatların ortaq cəhəti və xarakteristik xüsusiyyətləri. Montqomeri Uot (W. M. Watt.) "The significance of the sectes in Islamic thepology" ("İslam teologiyasında məzhəblərin əhəmiyyəti"). İslam Kəlam elmində məzhəblərin əhəmiyyəti. Kit Levinşteyn (Keith Lewinstein). "Studies in Islamic heresiography: The khavarij in two firaq tradition (İslam | Gökkır, s. 97-100;<br>İbrahim-el Hudeyni, s. 261-290;<br>Aydın, s. 233-240.<br>**Tapşırıq:** Qərb şərqşünaslarının kəlam ilə bağlı tədqiqatlarının araşdırılması. |

| | | | |
|---|---|---|---|
| | | məzhəblərinə dair araşdırma: iki firqə ənənəsində xəvaric. D. Sorde (Dominique Sourdel). “La Classification des sectes Islamique dans le Kitab al-milal d`al-Shahrastani” (“Şəhristaninin “Miləl adlı kitabında İslam məzhəblərinin təsnifatı”). | |
| **11** | 02.05.2022 | **İslam fəlsəfəsi araşdırmaları**<br>Qərbdə İslam fəlsəfəsi sahəsindəki əsas tədqiqat əsərləri. İslam fəlsəfəsinə dair tədqiqat əsərlərinin ümumi cəhəti. B. Rassel (Bertrand Russell) və History of Western Philosophy (Fəlsəfə tarixi). İslam fəlsəfəsi. Albert Şveytserin (Albert Schweitzer) “Əxlaq və mədəniyyət” adlı əsəri. Sör Ceyms Cins (Sir James Jeans), “The Growth of physical science” (“Təbiət elminin inkişafı”) və elm tarixi. Akvinalı Foma (Thomas Aquinas), On the Unity of the Intellect against the Averroists. Philosophy in the Middle Ages: The Christian, Islamic, and Jewish Traditions, (“İbnrüşdçülərə qarşı zəkanın birliyi haqqında. Orta əsrlərdə fəlsəfə: Xristian, İslam və Yəhudi ənənələri”), naşir: Artur Hayman (Arthur Hyman) – Ceyms C. Uolş (James Joseph Walsh). T.J. de Bur (Tjitze Jacobs de Boer), “The History of Philosophy in Islam” (“İslam fəlsəfəsi tarixi”). Anri Korben (Henry Corbin). Oliver Liman (Oliver Leaman), Seyyid Hüseyn Nasr. “İslam fəlsəfəsi”. | Sarıçam-Erşahin, s. 309-345;<br>Aybakan, s. 149-174;<br>Çolak, s. 310-318;<br>İbrahim-el Hudeyni, s. 261-290;<br>Aydın, s. 233-240.<br>**Tapşırıq:** Qərb şərqşünaslarının İslam fəlsəfəsi ilə əlaqəli əsərlərinin təhlili. |
| **12** | 09.05.2022 | **Təsəvvüf araşdırmaları**<br>Qərbdə sufizmlə bağlı əsas tədqiqat əsərləri və müəllifləri. Sufizmlə bağlı tədqiqat əsərlərinin ümumi xarakteristik xüsusiyyətləri. Hyu Talat Halman (Hugh Talat Halman), “Sufism in the West” (“Qərbdə sufizm”), “Islam in an Interspiritual Age” (“İnterspritual mühitdə İslam”), “Voices of Islam” (“İslamın səsi”). Qərbdə sufizm. Qərbdə Yəsəvilik haqqındaki araşdırmalar. Vasili Bartold (Vasily Bartold) və Andras Bodroqligeti (Andras Bodrogligeti). “The Impact of Ahmed Yasevi`s teaching on the cultural and political life of the Turks of Central Asia” (“Əhməd Yəsəvi təliminin Mərkəzi Asiya türklərinin kultural və siyasi həyatında təsiri”). | Davutoğlu, s. 39-52;<br>Aydın, s. 233-240;<br>Halman, s. 255-290.<br>**Tapşırıq:** Qərb şərqşünaslarının təsəvvüf ilə əlaqəli əsərlərinin təhlili. |
| **13** | 16.05.2022 | **İslam mədəniyyəti araşdırmaları**<br>Qərbdə İslam mədəniyyəti ilə bağlı əsas tədqiqat əsərləri və mühüm müəlliflər. Qərbdə İslam mədəniyyəti ilə bağlı tədqiqatların ortaq cəhətləri. Qustav Edmund fon Qrünebaum (Gustave E. von Grunebaum), “Medieval Islam”. Unity and Variety in Muslim Civilization” (“Orta əsrlər İslamı”. Müsəlman sivilizasiyasında birlik və müxtəliflik”). İbrahim Kalın. Qərbdə İslam | Sarıçam-Erşahin, s. 309-345;<br>Kalın, s. 1-51;<br>Davutoğlu, s. 39-52;<br>Çolak, s. 310-318;<br>Aydın, s. 233-240.<br>**Tapşırıq:** Qərb şərqşünaslarının İslam mədəniyyəti araşdırmaları ilə əlaqəli əsərlərinin |

| | | | |
|---|---|---|---|
| | | təsəvvürünün tarixinə giriş. Bartold (V. Bartold) və Fuad Köprülü, "İslam medeniyeti tarihi" ("İslam mədəniyyətinin tarixi"). Daneşmənd Hami. Qərb mənbələrinə görə İslam mədəniyyəti. Qrünebaum (Grünebaum). İslam mədəniyyətinin qaynaqları. | araşdırılması. |
| **14** | 23.05.2022 | **Müasir dövrdə Qərbdə İslam araşdırmalarına yeni yanaşmalar**<br>Müasir dövrdə Qərbdə İslam tədqiqatları ilə bağlı yeni yanaşmaların ortaq cəhəti və səciyyəvi xüsusiyyətləri. Ahmet Davutoğlu, Qərbdəki İslam tədqiqatları haqqında ümumi dəyərləndirmə. İbrahim Kalın. Qərbdə İslam təsəvvürünün tarixinə giriş. Qərbdə İslam tədqiqatlarının ümumi aspektdən analiz edilməsi. | Kalın, s. 1-51;<br>Davutoğlu, s. 39-52;<br>Çolak, s. 310-318;<br>Aydın, s. 233-240.<br>**Tapşırıq:** Qərbdə İslam tədqiqatlarına yeni yanaşmalar və səciyyəvi xüsusiyyətləri |
| **15** | 30.05.2022 | **Keçirilənlərin ümumi təhlili.** | **Tapşırıq:** Keçirilənlərin ümumi təhlili. |

| № | Məşğələlərin adı | Saat mühazirə | Tarix | Qeyd |
|---|---|---|---|---|
| 1 | Qərbdə İslam tədqiqatları fənninə giriş | 2 | 18.02.2022 | |
| 2 | Qərbdə İslam tədqiqatları fənninin obyekti, predmeti və aktuallığı | 2 | 25.02.2022 | |
| 3 | Qərbdə İslam tədqiqatlarının təşəkkülündə şərqşünaslığın rolu, tarixi və mənbələri | 2 | 04.03.2022 | |
| 4 | Qərbdə İslam tədqiqatlarının ilkin dövrü və xarakterik xüsusiyyətləri | 2 | 11.03.2022 | |
| 5 | Qərbdə İslam tədqiqatlarının ilkin dövrü və xarakterik xüsusiyyətləri | 2 | 18.03.2022 | |
| 6 | Quran və təfsir araşdırmaları | 2 | 25.03.2022 | |
| 7 | Hədis araşdırmaları | 2 | 01.04.2022 | |
| 8 | İslam tarixi araşdırmaları | 2 | 08.04.2022 | |
| 9 | İslam hüququ (fiqhi) araşdırmaları | 2 | 15.04.2022 | |
| 10 | İslam məzhəbləri tarixi araşdırmaları | 2 | 22.04.2022 | |
| 11 | İslam kəlamı araşdırmaları | 2 | 29.04.2022 | |
| 12 | İslam fəlsəfəsi araşdırmaları | 2 | 06.05.2022 | |
| 13 | Təsəvvüf araşdırmaları | 2 | 13.05.2022 | |
| 14 | İslam mədəniyyəti araşdırmaları | 2 | 20.05.2022 | |
| 15 | Müasir dövrdə Qərbdə İslam araşdırmalarına yeni yanaşmalar | 2 | 27.05.2022 | |

**Fənn müəllimi:** **N.Ə.Məmmədli**